**Yusif Əli HƏSƏNLİ**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: yusifhasanli300@gmail.com

# AQRAR SAHƏDƏ İXRAC POTENSİALININ ARTIRILMASININ METODOLOJİ ASPEKTLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi – Aqrar sahədə ixrac potensialının artırılmasının metodoloji aspektləri tədqiq edilmişdir. İxrac potensialının artırılması imkanları açıqlanmış və sistemləşdirilmişdir. Azərbaycanda aqrar sahənin inkişaf problemləri araşdırılmış və ümumiləşdirilmişdir. Aqrar sektorda ixrac potensialının artırılmasının iqtisadi əhəmiyyəti verilmişdir. Yaxın perspektivdə Azərbaycanda aqrar sektorun ixrac potensialının yüksəldilməsi üzrə metodoloji yanaşmaların təkmilləşdirilməsinə dair təkliflər verilmişdir. Tədqiqatın metodu – formasında bir qrup metodlar seçilmişdir, məsələn analiz, sintez, müqayisə və statistika metodlarından istifadə olunmuşdur. Eyni zamanda, aqrar sahədə ixrac potensialının artırılması problemlərinə dair digər tədqiqatçıların elmi əsərlərinə istinadlar edilmişdir. Tədqiqatın nəticələri – baxımından qeyd edək ki, alınmış elmi müddəalar və hazırlnmış təkliflər Azərbaycanın aqrar sektorunda ixrac potensialının genişləndirilməsi tədbirlərinin və mexanizmlərinin hazırlanmasında, tətbiqində istifadə edilə bilər.

**Açar sözlər:** Azərbaycan, aqrar sahə, ixrac potensialı, ixrac potensialının artırılması, ixrac potensialının metodoloji aspektləri, ixrac siyasəti, ixrac strategiyası.

**UOT:** 338.436
**JEL:** O24; Q17
**DOI:** https://doi.org/10.54414/FFOK2242

## Giriş

Qeyd edək ki, ixrac ölkənin xarici ticarət sahələrindən biridir. İxrac potensialı isə iqtisadi potensialın tərkib hissəsi olduğu üçün ölkənin inkişafında önəmli rol oynayır. Odur ki, Azərbaycanda yerli istehsalın genişləndirilməsi hesabına aqrar sahədə ixrac potensialının artırılmasının metodoloji əsaslarının öyrənilməsi aktual vəzifə kimi qarşıya qoyulmalıdır. İqtisadiyyatın aqrar sektorunun problemləri öyrənilərkən bazar münasibətləri şəraitində aqrar sahənin ixrac potensialının inkişaf strategiyasının formalaşdırılmasının nəzəri və metodoloji ilkin şərtlərinin müəyyənləşdirilməsi böyük önəm daşıyır.

Xarici ticarətin əsas funksiyası idxal və ixrac proseslərində iştirak edən subyektlər arasında səmərəli qarşılıqlı faydalı əməkdaşlığı təmin etməkdir. Bölgələri və dövlətləri xarici ticarəti reallaşdırmağa stimullaşdıran əsas səbəb isə əmək, maliyyə, təbii və digər resursların qeyri-bərabər paylanmasıdır. Beləliklə, xarici ticarətin reallaşdırılmasının bir çox səbəbləri ola bilər və hər bir subyektin bu fəaliyyəti həyata keçirmək məqsədilə öz əsaslandırması və stimulları var. İxrac əməliyyatlarının reallaşdırılmasının nəzəriyyəsi və təcrübəsinin tədqiqi milli iqtisadiyyat üçün əsas faydaları və riskləri müəyyənləşdirməyə, onların azaldılması üçün bir sıra idarəetmə tədbirlərinin hazırlanmasını zəruri etməyə imkan vermişdir.

Hazırda nəinki bir dövlətin, hətta regionun müasir iqtisadiyyatını xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi olmadan təsəvvür etmək olmaz, onun tərkib elementi ticarətdir ki, bu da öz növbəsində ixrac-idxal əməliyyatlarının reallaşdırılmasını nəzərdə tutur. İxrac üçün əsas meyar malların ölkənin iqtisadi ərazisinin sərhədindən keçməsi faktıdır [1, s.115].

**Aqrar sahədə ixrac potensialının artırılmasına metodoloji yanaşmalar.** Ölkənin mövcud aqrar ixrac potensialının öyrənilməsi aqrar sənayenin dünya bazarına çıxarmaq üçün

istehsal etdiyi məhsulların çeşidinin genişləndirilməsi deməkdir. Aqrar sahənin ixrac potensialı daxili bazarın tələbatının tam ödənilməsi, habelə dünya bazarlarında rəqabət nəzərə alınmaqla, müxtəlif növ aqrar-sənaye məhsullarının kəmiyyət və dəyər ifadəsində ixracının mümkün həcmini əks etdirir. Başqa sözlə desək, ixrac potensialı istehsal olunan məhsulların müəyyən həcmini xaricə satmaq imkanıdır. Azərbaycan aqrar sahə xammalı və məhsullarının ixrac imkanlarına malikdir. Bu baxımdan, ilkin strategiya mövcud bazarlara ixrac həcmlərinin intensivləşdirilməsinə və genişləndirilməsinə, habelə daha keyfiyyətli ixrac bazarlarına nüfuz etməyə yönəldilməlidir. İkinci istiqamət ixrac üçün hansı malların istehsal oluna biləcəyinin təhlilini və qiymətləndirilməsini nəzərdə tutur.

Azərbaycanın xarici ticarət strategiyasında milli iqtisadiyyatın inkişaf xüsusiyyətləri və dünyada istehlak tələbatı nəzərə alınmaqla ixrac potensialının artırılmasına yönəlmiş daha səmərəli mexanizmlərə üstünlük verilir. Aqrar ixracın inkişaf strategiyasının əsas məqsədləri perspektivli ixrac sahələrinin inkişafıdır. Bu potensialın genişləndirilməsi milli valyutanın möhkəmlənməsi və konvertasiyası ilə bağlı iqtisadi problemlərin əksəriyyətini əhəmiyyətli dərəcədə həll edə, milli iqtisadiyyatın maliyyələşdirilməsinin xarici mənbəyini yarada və xalqın rifah halını yüksəldə bilər.

İqtisadi inkişafın davamlılığının təmin edilməsi xeyli dərəcədə ölkənin aqrar ixrac potensialının artırılmasından asılıdır. İxrac ölkələrin qarşısında duran iqtisadi problemlərin həlli və qlobal miqyasda təmsil olunması, insanların rifah səviyyəsinin yüksəldilməsi baxımından böyük önəm daşıyır, iqtisadiyyatın böhrandan çıxmasında və bazar transformasiyasında əsas sabitləşdirici amil kimi çıxış edir [2, s.25].

Ümumiyyətlə, bazar münasibətləri şəraitində aqrar sahə məhsullarının satışının əlverişli səviyyəsinin müəyyənləşdirilməsi və ixrac potensialının artırılması üçün daxili və xarici aqrar bazarların təhlili çox vacibdir. Aqrar-ərzaq bazarı tələb olunan həcmdə kənd təsərrüfatı məhsullarının istehsalını, resursların bölüşdürülməsini və ərzaq mübadiləsini, onların istehlakını təmin edən açıq sosial-iqtisadi sistemdir. Bu bazarın inkişafının maksimum səmərəliliyi ərzaq və texniki təyinatlı aqrar sahə məhsullarına olan tələbatın ödənilməsində, sığorta və ehtiyat fondlarının formalaşdırılmasında, aqrar sahə məhsulları istehsalçılarının gəlir əldə etməsinə şərait yaradılmasında özünü göstərir. Aqrar-ərzaq bazarının elementləri kənd təsərrüfatı xammalı, kənd təsərrüfatı məhsulları və ərzaq bazarlarıdır.

Aqrar sahə iqtisadiyyatının ixracyönümlü artımı onun ixtisaslaşmasının güclənməsinə, aparılan ixracyönümlü siyasət isə miqyasda müsbət təsirə səbəb olur. Bundan əlavə, ixracyönümlülük ixracyönümlü sənaye sahələrinin səmərəliliyini və rəqabət qabiliyyətini nəzərdə tutur ki, bu da yüksək ixtisaslı işçilərin mövcudluğunu, elmin, texnologiyanın və əlaqəli infrastrukturun inkişafını nəzərdə tutur. Bununla belə, ixracyönümlü aqrar-ərzaq bazarının fəaliyyət göstərməsi üçün prioritet şərt istehsal olunan məhsula real tələbin olmasıdır.

Aqrar sənaye məhsulları bazarının inkişafı və onun ixrac potensialının gücləndirilməsi sahəsində fəaliyyətə başlamazdan əvvəl, ilk öncə, həmin sənayenin mühüm sahələri müəyyənləşdirilməli və inkişaf etdirilməsi ilə bağlı önəmli addımlar atılmalıdır. Aqrar sənaye məhsulları bazarının inkişafı və onun ixrac potensialının gücləndirilməsi baxımından bu sahədə ən önəmli istiqamətlər ola bilər:

- aqrar bazarının inkişafının davamlılığına nail olunması və ixrac potensialının gücləndirilməsi,
- aqrar istehsala dövlət dəstəyinin göstərilməsi və dövrün tələblərinə uyğun ərzaq təhlükəsizliyi problemlərinin tənzimlənməsi;
- kənd infrastruktur sahələrinin inkişaf etdirilməsinin sürətləndirilməsi;
- aqrar sahədə çalışanların gəlirlərinin ölkə üzrə orta göstəriciyə yaxınlaşdırılması;
- ölkədə ekoloji təmiz qida ilə bağlı siyasətin reallaşdırılması;
- aqrar sənaye işçilərinin bilik, bacarıq və peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s [3, s.12].

İxrac yönümlü aqrar-ərzaq bazarının inkişafı üçün prioritet istiqamətlər seçilərkən əhalinin özünütəminat səviyyəsini nəzərə

almaqla regionların sahəvi aqrar strukturunun inkişafında tarazlığın qorunması vacibdir.

Azərbaycanda aqrar sahənin ixrac potensialının mövcud vəziyyətini qiymətləndirmək üçün aşağıdakı cədvələ diqqət yetirək (cədvəl 1).

**Cədvəl 1.** Azərbaycan Respublikasında aqrar ixracın əsas məhsul növləri üzrə strukturu.

| Malların adı | 2020 | | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Miqdarı | Məbləği, min ABŞ dolları | Miqdarı | Məbləği, min ABŞ dolları | Miqdarı | Məbləği, min ABŞ dolları | Miqdarı | Məbləği, min ABŞ dolları |
| Kartof, ton | 81388,3 | 33786,2 | 92343,5 | 40077,7 | 78301,4 | 35121,7 | 71192,3 | 30930,3 |
| Təzə tərəvəz, ton | 218476,3 | 219912,7 | 173812,0 | 179786,5 | 168918,5 | 183238,9 | 178792,0 | 180587,2 |
| Təzə meyvə, ton | 301080,9 | 349886,2 | 361898,0 | 403550,6 | 378644,5 | 436418,2 | 454856,0 | 502107,7 |
| Çay, ton | 1357,2 | 9 461,4 | 1 115,7 | 8 491,7 | 1779,6 | 11516,7 | 731,5 | 6605,0 |
| Bitki yağları, ton | 14043,4 | 12238,3 | 11889,1 | 15 860,7 | 7902,5 | 14638,2 | 5 492,4 | 9214,3 |
| Hidrogenləşdirilmiş piylər və yağlar, ton | 6665,8 | 8109,2 | 7035,3 | 11351,0 | 4801,3 | 10846,0 | 3141,5 | 6397,2 |
| Marqarin, digər qida qarışıqları, ton | 3907,8 | 4216,1 | 3086,7 | 4379,0 | 2090,0 | 4012,7 | 3055,0 | 5030,5 |
| Şəkər, min ton | 60,6 | 26904,3 | 59,1 | 32093,1 | 54,9 | 38799,9 | 31,8 | 23681,0 |
| Meyvə və tərəvəz konservləri, ton | 7191,2 | 8727,8 | 8512,9 | 9581,2 | 8477,3 | 10487,8 | 9932,5 | 13425,7 |
| Meyvə və tərəvəz şirələri, ton | 11856,3 | 15779,5 | 12707,7 | 15449,5 | 11159,0 | 14229,2 | 16093,8 | 20420,4 |
| Üzüm şərabı, min dkl. | 227,3 | 4038,0 | 263,4 | 3961,0 | 300,6 | 5566,5 | 317,3 | 6987,2 |
| Tünd spirtli içkilər, min dkl. 100 %-li spirtlə | 160,1 | 5927,5 | 259,4 | 7231,2 | 289,2 | 10337,7 | 475,3 | 16967,5 |
| Tütün, ton | 4794,0 | 12081,3 | 5262,2 | 14319,6 | 6892,9 | 20403,3 | 3041,6 | 6858,7 |

**Mənbə:** [4] əsasən hazırlanmışdır.

Cədvəl 1-dən görünür ki, Azərbaycanın aqrar məhsullarından ən çox ixrac olunanı təzə meyvədir. Belə ki, 2023-cü ildə ölkə üzrə aqrar ixrac həcmində ən çox paya 454856,0 ton və ya 502107,7 min ABŞ dolları təzə meyvənin ixracı tutduğu halda, ikinci yerdə 178792,0 ton və 180587,2 min ABŞ dolları olmaqla təzə tərəvəz ixracı qərarlaşıb. Şəkil 2 bu məhsulların ixracının artım dinamikasını təhlil edək.

**Aqrar sahədə ixrac potensialının artırılması üzrə metodoloji üslubların təkmilləşdirilməsi istiqamətləri.** Müasir bazar mexanizmlərinin tətbiqi və məhsulların ixracı prosedurunun sadələşdirilməsi istiqamətində fəal iş aparılsa da, meyvə-tərəvəz ixracının artmasına və çeşidinin genişlənməsinə mane olan amillər mövcuddur. Xüsusilə, bu gün ixracyönümlü meyvə-tərəvəzin çoxu kiçik istehsalçılar tərəfindən fərdi təsərrüfatlarda yetişdirilir. İstehsalçıların əhəmiyyətli bir hissəsi xarici bazarları öyrənmək, müqavilə bağlamaq və marketinq tədqiqatları aparmaq təcrübəsinin olmaması səbəbindən məhsullarını müstəqil ixrac etmək imkanına malik deyil. Fikrimizcə, meyvə-tərəvəz ixracının daha da inkişafı məqsədilə görüləcək tədbirlər sırasına daxildir:

- ✓ meyvə-tərəvəz istehsalçılarına birbaşa xidmət göstərən istehsal və bazar infrastrukturunun təkmilləşdirilməsi;
- ✓ beynəlxalq tərəvəz və meyvə bazarının davamlı öyrənilməsi və satış proseslərinin təkmilləşdirilməsi və bu xidmətlərin səmərəliliyinin artırılması üçün marketinq xidmətlərinin təşkili;
- ✓ tərəvəz və meyvələrin regional bazarlarının inkişaf tendensiyalarının təhlili, marketinq tədqiqatlarında istifadə olunan

bir sıra göstəricilərdən, məsələn, ayrı-ayrı mallar üzrə tələb və təklifin həcmi və bazar konyukturasından istifadə;

- ✓ xarici bazarların tədqiqinin nəticələrinə əsasən seqmentləşdirmə, konkret bazarda rəqabət səviyyəsinin qiymətləndirilməsi əsasında məhsul çeşidi üzrə beynəlxalq marketinq strategiyalarının formalaşdırılması və işlənib hazırlanması;
- ✓ aqrar sahə məhsullarının ixracı ilə bağlı problemli məsələlərin müzakirəsi üçün ölkənin bütün regionlarında mütəmadi görüşlərin təşkili;
- ✓ aqrar-sənaye kompleksinin meyvə-tərəvəz sektorunda marketinqdən istifadənin xüsusiyyətlərinin nəzərə alınması;
- ✓ aqrar sənaye məhsullarının ticarət prosedurlarının daha da liberallaşdırılması;
- ✓ meyvə və tərəvəzlərin aqroklasterlərinin stimullaşdırılması;
- ✓ sərhədi keçərkən korrupsiya elementlərinin aradan qaldırılması;
- ✓ aqrar sahə məhsullarının ixracı üzrə sığorta mexanizmlərinin təkmilləşdirilməsi və s.

Təkcə meyvə-tərəvəz deyil, digər kənd təsərrüfatı məhsullarının ixracının artırılması da əsas prioritetlərdən olmalıdır. Bundan əlavə, müxtəlif tədqiqatlar göstərir ki, Azərbaycanın balıqçılıq sənayesində ixrac potensialı var. Bu sahədə ixrac həcmini artırmaq üçün innovativ balıq məhsulları və xidmətlərini inkişaf etdirmək lazımdır. Azərbaycanda quşçuluğun inkişafı və müasirləşdirilməsi onun məhsullarına olan daxili tələbatı tam ödəmək və ixracını genişləndirmək imkanı verir. Bunun üçün yeni texnologiyaların tətbiqi, damazlıq tərkibinin və ərzaq təminatının gücləndirilməsi, bu sahənin idarə olunmasında menecmentin və marketinqin inkişafı və maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi lazımdır. Modernləşmə dəyər zəncirini uzatmağa və hər mərhələdə daha yüksək əlavə dəyər əldə etməyə, xammal və yarımfabrikatların ixracından hazır məhsulların ixracına keçməyə imkan verir. Aqrar ixracın əmtəə strukturunu təhlil edərək ixrac potensialının inkişafında bir sıra perspektivli istiqamətləri müəyyənləşdirə bilərik:

1. İxrac olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılması, eləcə də çeşidinin genişləndirilməsi ilə gəlirlərin artırılması. Azərbaycanda aqrar sahə potensialı kifayət qədər yüksək səviyyədədir, xüsusən də orqanik məhsulların istehsalında tələbat hər il artır.
2. Bütün növ kənd təsərrüfatı məhsullarının tədarükünün artırılması.
3. Məhsullarını ixrac üçün tədarük edən yerli fermerləri dəstəkləyən yeni dövlət proqramlarının hazırlanması, tətbiqi və reallaşdırılması.
4. Xarici ölkələrə ərzaq məhsullarının tədarükünün artırılması.
5. Aqrar sahədə çalışan mütəxəssislərin ixtisas səviyyəsinin yüksəldilməsi.
6. Aqrar sahə müəssisələrinin maddi-texniki bazasının yenilənməsi.
7. Kənd təsərrüfatı sahəsinə cəlb edilən torpaq ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması.

Beləliklə, Azərbaycanın yüksək ixrac potensialına malik olduğu qənaətinə gələ bilərik. Buna ölkənin geniş ərazisi və müxtəlif təbii-iqlim şəraiti kömək edir.

Hazırda əsas prioritet vəzifə aqrar sahə məhsullarının istehsal həcminin artırılmasıdır. Aqrar sahənin istehsal etdiyi məhsulların həcminin artması ölkənin ərzaq təhlükəsizliyinə təhdidlər azaltmaqla yanaşı, ixrac potensialının artmasına gətirib çıxarır. Bu və ya digər vəzifələrlə müəyyənləşdirilən aqrar müəssisələrin müasir inkişaf istiqamətləri innovativ texnologiyalardan istifadə hesabına əmək məhsuldarlığının artırılmasını zərurətə çevirir. Əmək məhsuldarlığı müxtəlif yollarla artırılır ki, bunlardan əsası məhz maddi-texniki təminatın yaxşılaşdırılması, daha doğrusu, yeni xammal və enerji növlərinin istifadəsi və müasir texnologiya və avadanlıqların tətbiqidir [5, s.89].

Azərbaycanda əksər bitkiçilik növlərinin istehsalı inkişaf etdirilir və həmin sahənin əsas məhsulu şübhəsiz ki, taxılçılıqdır. Taxılçılıq ərzaq təhlükəsizliyi baxımından əsas fəaliyyət sahələrindən biridir. Son illərdə taxıl istehsalı ildən-ilə artır və əsasən suvarılan və dəmyə torpaqlarda istehsal olunur. Bununla yanaşı, Azərbaycanda çoxlu sayda bostançılıq və tərəvəzçilik məhsulları yetişdirilir və həmin məhsullar əhalinin ərzaq təhlükəsizliyi və

ölkənin aqrar ixrac potensialının artırılması baxımından önəmlidir. Ölkəmizin kənd təsərrüfatında bitkiçiliklə yanaşı, heyvandarlığın inkişafı da prioritet sahələrdən biri hesab olunur və burada əsas fəaliyyət ət və süd məhsullarının istehsalı ilə bağlıdır [6, s.25-26]. İxrac potensialını artırmaq üçün topdansatış və paylama mərkəzlərinin infrastrukturunu inkişaf etdirmək, o cümlədən kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının saxlanması və daşınması imkanlarını genişləndirmək lazımdır [7, s.174].

İxrac potensialının artması dövlət tərəfindən müxtəlif tədbirlərlə stimullaşdırılmalıdır. Aqrar sahə məhsullarının ixracının inkişafı və genişləndirilməsi həm ixracatçılara vergi güzəştlərinin verilməsi və iqtisadiyyatın ixrac sektorunun inkişafı üçün uzunmüddətli güzəştli kreditlərin verilməsi yolu ilə mikro səviyyədə, həm də makro səviyyədə stimullaşdırılmalıdır. Aqrar sektor səviyyəsində ixracın stimullaşdırılmasının iki istiqaməti var: mövcud ixrac məhsullarının genişləndirilməsi; ixraca yararlı innovativ müəssisələrdə məhsulların istehsalı.

Kənd təsərrüfatı sənayesinin ixrac potensialının artırılmasında maliyyə tədbirləri, o cümlədən güzəştli kreditləşmə xüsusi önəm daşıyır. Aqrar sektorun güzəştli kreditləşdirilməsi zamanı Aqrar Kredit və İnkişaf Agentliyi və Azərbaycan Sahibkarlığın İnkişafı Fondu ixtisaslaşmış dövlət qurumları kimi çıxış edirlər. DGK tərəfindən sahibkarlar üçün "Yaşıl Dəhliz" keçid sisteminin formalaşdırılması xarici ticarət iştirakçıları üçün əlverişli şəraitin yaradılmasını, biznesin idarə edilməsi mexanizmlərinin səmərəliliyinin və ölkənin ixrac potensialının artırılmasını təmin edir.

Brendləşmə və ayrı-ayrı aqrar sahə məhsullarının xarici bazarlara çıxarılması imkanlarının təkmilləşdirilməsi kimi ixrac potensialının artırılmasına yönəlmiş tədbirlər xüsusilə diqqətəlayiqdir. Bu gün "Made in Azerbaijan" brendi ilə məhsullarımız artıq dünya bazarlarına çıxarılır. Kənd təsərrüfatının ardıcıl inkişafı və ixrac potensialına dövlət dəstəyi ilə yanaşı, istehsalçıların bazar münasibətlərinə uyğunlaşdırılması, əlverişli iqtisadi şəraitin formalaşdırılması, logistika sahəsində dayanıqlığın təmin edilməsi kimi məsələlərin də önəmliliyini qeyd etmək lazımdır.

**Nəticə**

Aqrar sənayenin ixrac potensialının artırılması istiqamətlərinin və prioritetlərinin təhlilinə əsaslanaraq, zəruridir:

- ✓ ölkədə sabitliyin təmin edilməsi və makroiqtisadi göstəricilərin yaxşılaşdırılması (dövlət tərəfindən zəmanətli maliyyə dəstəyi, investisiya, ixrac subsidiyalarının ayrılması və s.);
- ✓ ixrac potensialının və xarici ticarət prosesinin idarə edilməsi sahəsində mövcud qanunvericiliyin beynəlxalq təcrübəyə uyğunlaşdırılması;
- ✓ nisbi üstünlüklərə malik olan aqrar sahə məhsullarının ixrac potensialını müəyyənləşdirmək şərti ilə, onların inkişafını təmin etmək üçün strategiyanın hazırlanması, dünya bazarında baş verən dəyişikliklərə uyğun olaraq ona dəyişikliklərin və əlavələrin edilməsi;
- ✓ müqayisəli üstünlüklərə malik olan aqrar sahə məhsullarının ixracının, ilk öncə, inkişaf etmiş ölkələrin bazarlarına yönəldilməsi;
- ✓ xarici lisenziyalar əsasında kənd təsərrüfatı məhsullarının ixracında ixtisaslaşan biznes sektorlarında xüsusi güzəştlərin tətbiqi;
- ✓ ayrı-ayrı ölkələr, regional inteqrasiya birlikləri və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi;
- ✓ istehsalda yüksək texnologiyaların tətbiqinin genişləndirilməsi;
- ✓ istehsal ehtiyatlarından daha səmərəli istifadə imkanlarının müəyyənləşdirilməsi və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Отинова М.Е. Теоретические и методологические аспекты развития экспортно ориентированного агропродовольственного рынка. Отинова М.Е., Сальникова Е.В. Вестник Курской государственной сельскохозяйственной академии. 2019;6:113–120 .

2. Nərimanov N.A. Azərbaycan Respublikasında aqrar ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. Gəncə, 2021, 32 s.
3. Əkbərov E.H. Kənd təsərrüfatı məhsulları ixracının stimullaşdırıcı istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. Bakı, 2024, 30 s.
4. ARDSK. [Elektron resurs]. https://www.stat.gov.az/source/trade/
5. Osmanov İ.O. Aqrar müəssisələrdə əmək məhsuldarlığının yüksəldilməsi istiqamətləri. SDU Elmi xəbərlər, Sosial və humanitar elmlər bölməsi, 2024;20(3)87–91.
6. Əliyev Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək Yolu, 2018;2:23–32.
7. Андреев В.С. Значение экспортного потенциала в развитии АПК страны. Экономические исследования и разработки, 2024;3:173–179.

**Yusif Ali HASANLI**
PhD student of Azerbaijan Cooperation University

## METHODOLOGICAL ASPECTS OF INCREASING EXPORT POTENTIAL IN THE AGRICULTURAL SECTOR

### Summary

The purpose of the study – The methodological aspects of increasing export potential in the agricultural sector have been studied. The possibilities of increasing export potential have been explained and systematized. The problems of development of the agricultural sector in Azerbaijan have been studied and generalized. The economic importance of increasing export potential in the agricultural sector has been given. Proposals have been made on improving methodological approaches to increasing the export potential of the agricultural sector in Azerbaijan in the near future. The method of the study – a group of methods has been selected in the form, for example, analysis, synthesis, comparison and statistical methods have been used. At the same time, references have been made to the scientific works of other researchers on the problems of increasing export potential in the agricultural sector. In terms of the results of the study – it should be noted that the obtained scientific provisions and the prepared proposals can be used in the preparation and application of measures and mechanisms for expanding export potential in the agricultural sector of Azerbaijan.

**Keywords:** Azerbaijan, agricultural sector, export potential, increasing export potential, methodological aspects of export potential, export policy, export strategy.

**Юсиф Али ГАСАНЛЫ**
Докторант Азербайджанского Университета Коопераци

## МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПОВЫШЕНИЯ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В СЕЛЬСКОХОЗЯЙСТВЕННОМ СЕКТОРЕ

### Резюме

Цель исследования – изучены методологические аспекты повышения экспортного потенциала в агропромышленном секторе. Рассмотрены и систематизированы возможности повышения экспортного потенциала. Изучены и обобщены проблемы развития агропромышленного сектора в Азербайджане. Приведена экономическая значимость повышения экспортного потенциала в агропромышленном секторе. Предложены методы

совершенствования методологических подходов к повышению экспортного потенциала агропромышленного сектора в Азербайджане в ближайшем будущем. Метод исследования – использована группа методов, например, анализ, синтез, сравнение и статистические методы. Одновременно приведены ссылки на научные работы других исследователей по проблемам повышения экспортного потенциала в агропромышленном секторе. По результатам исследования следует отметить, что полученные научные положения и подготовленные предложения могут быть использованы при подготовке и применении мер и механизмов расширения экспортного потенциала в агропромышленном секторе Азербайджана.

**Ключевые слова:** Азербайджан, сельскохозяйственный сектор, экспортный потенциал, наращивание экспортного потенциала, методологические аспекты экспортного потенциала, экспортная политика, экспортная стратегия.

**Daxil olub:** 26.02.2026